# Poçt zamanın tələblərinə cavab verir



Azərbaycanda vahid poçt operatoru olan "Azərpoçt" MMC və onun tabeliyində fəaliyyət göstərən poçt müəssisələri öz işlərini günün, zamanın tələblərinə uyğun qurur, yüksək əzmlə çalışaraq uğurlar qazanırlar. Astara Poçt Filialının kollektivi Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin, "Azərpoçt" MMC-nin və Rayon İcra Hakimiyyətinin sərəncam və göstərişlərinə uyğun olaraq işini qurur, əhaliyə yüksək səviyyədə nümunəvi poçt xidməti göstərir.

Filialımızda 1 Müştəri Xidmətləri Şöbəsi, 3 şəhər poçt şöbəsi və 15 kənd poçt şöbəsi fəaliyyət göstərir.

2015-ci ilin 7 ayının nəticəsi Poçt Filialımız üçün uğurlu olmuşdur. Filial ümumi gəlirlərin 168,5 min manat proqnozuna qarşı 169,52 min manat gəlir əldə etmişdir. Nəzərdə tutulan proqnozdan 1017 manat çox, keçən ilin müvafiq dövrü ilə müqayisədə 17,0 min manat (111 faiz) çox gəlir əldə edilmişdir. Ötən dövr ərzində ayrı-ayrı növlər üzrə də göstəricilər yüksək olmuşdur. Pul baratlarının 97,6 faiz (keçən ilin müvafiq dövrünə nisbətən isə 105 faiz artım), dövri mətbuat satışı proqnozu 110 faiz, qiymətli banderol və məktublar 100,5 faiz, telefon haqların yığımı üzrə 113 faiz, elektrik enerjisi haqlarının yığımı 113 faiz, qazdan istifadə haqlarının yığımı 117 faiz təşkil etmişdir. Digər göstəricilər də keçən ilin müvafiq dövrünə görə qənaətbəxşdir. Onu da qeyd edim ki, bu dövrdə beynəlxalq köçürmələrdə 55 faiz artıma nail olunmuşdur. Filialımızda sürətli pul köçürmələrindən olan "Zolotaya Korona", "Miqom", "Contakt", "Western Union" və digərləri də həyata keçirilir.



Tarif gəlirində poçt xidmətlərindən əldə olunan gəlirin xüsusi çəkisi 14 %, maliyyə xidmətlərindən 40 %, kommunal xidmətlərindən (qaz, işıq, su) 42 %, digər xidmətlərdən 4 % olmuşdur. Tarif gəlirinin artmasına təsir edən əsas amil maliyyə xidmətlərindən (xüsusilə beynəlxalq pul köçürmələri və xarici valyutanın mübadilə əməliyyatları) və kommunal xidmət haqlarından (qaz, enerji, su) əldə olunan gəlirin həcminin artması ilə əlaqədar olmuşdur.

Poçt Filialımız Mərkəzi Bank tərəfindən 15 poçt şöbəmizə verilmiş icazə-lisenziyaya uyğun olaraq rayon əhalisinə poçt-maliyyə xidmətləri göstərir. Məlum olduğu kimi, heç bir bank strukturunun və maliyyə qurumunun kənd yerlərində müvafiq yığım məntəqələrinin olmaması poçt filialları üçün əlavə geniş imkanlar yaradır. Hazırda Astara Poçt Filialının da bununla bağlı müvafiq imkanları, işçi təcrübəsi və potensialı mövcuddur. Belə ki, nağddan hesaba modul üzərindən bu tipli bank və digər bank olmayan kredit təşkilatlarının yığımı iki ildən artıqdır ki, filialımız tərəfindən aparılır. Bələdiyyə vergilərinin də eyni qayda ilə poçt şöbələri ilə toplanması imkanı vardır. Buna görə də rayonda fəaliyyət göstərən bələdiyyələrin poçtda hesabı açılmış və müqavilələr bağlanmışdır. Hazırda rayon poçt filialı üzrə bütün poçt şöbələrində bələdiyyə vergilərinin yığımı həyata keçirilir.

Filialımızda rayon sakinlərinə poçt xidmətinin göstərilməsində müasir dövrün tələbləri tam nəzərə alınır və bütün növ yeni xidmətlər uğurla aparılır. "Caspian Money Transfer", "Atəşgah sığorta", "Ata sığorta", Dövlət Sosial Müdafiə Fonduna ödəmələr, vergi pullarının qəbulu, Dövlət Yol Polisinin cərimələri, bələdiyyə vergilərinin yığımı, fiziki və hüquqi şəxslərə, o cümlədən təşkilatlar tərəfindən bank hesablarının açılması, mobil telefonların qeydiyyata alınması və s.

Astara Poçt Filialı tərəfindən İran İslam Respublikası ilə həftədə iki dəfə -həftənin 3-6-cı günləri beynəlxalq poçt mübadiləsi aparılır və daxil olan poçt göndərişlərinin poçt daşıma mərkəzinə göndərilməsi təmin edilir.

Poçt filialımız daxil olan poçt göndərişlərini – qəzet, bağlama, teleqram və s. vətəndaşlara, idarə və müəssisələrə nəzarət-keçid müddətlərində çatdırılmasını təmin edir.

Bütün bu işlərin vaxtında və yüksək keyfiyyətlə həyata keçirilməsi üçün filialımızda hər cür imkanlar yaradılmışdır. Müasir texnologiyalar tətbiq etməklə, poçt rabitəmiz ən yüksək tələblərə cavab verir. Son illər Rabitə və Yüksək Texnologiyalar naziri, akademik Əli Abbasovun poçt sektoruna diqqəti sayəsində Bakıda və bölgələrimizdə yeni-yeni poçt filiallarının inzibati binaları və poçt şöbələri müasir üslubda tikilir, yeni texniki avadanlıqlarla təchiz edilir, ehtiyacı olanlar əsaslı təmir olunur. Astara Poçt Filialının inzibati binası və Müştəri Xidmətləri Şöbəsi Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin inşaat briqadası tərəfindən yüksək səviyyədə təmir edilmiş, işçilərin rahat şəraitdə işləməsi üçün hər cür şərait yaradılmışdır. Filialın bütün şöbələri yeni, müasir tələblərə uyğun olaraq tikilmiş, bütün mebel dəstləri yenisi ilə əvəz edilmiş və müasir texniki avadanlıqlarla təmin edilib kompüterləşdirilmişdir. İşçilərin iş şəraitinin müasir standartlar səviyyəsində olması daha yüksək iqtisadi göstəricilərə nail olunmasına imkan verir.

Astara Rayon İcra Hakimiyyətinin diqqət və qayğısı və "Azərpoçt" MMC rəhbərliyinin dəstəyi və köməkliyi sayəsində filialımız rayon əhalisinə günün tələbləri səviyyəsində nümunəvi poçt xidməti göstərir.

Astara Poçt Filialının kollektivi əmin edir ki, 2015-ci il və sonrakı illərdə əhaliyə yüksək səviyyədə poçt xidməti göstərəcək və illik tarif gəliri planının artıqlaması ilə yerinə yetirilməsinə bütün qüvvələrini səfərbər edəcəkdir.

**Aqil ƏHMƏDOV,**
**Astara Poçt Filialının rəisi.**